# Qardaşlığın, dostluğun ünvanı




**Azərbaycanın mədəniyyət paytaxtı Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir.**

Qısa müddətdə bu unikal şəhərin baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Şuşa dünyanın müsiqi səsidir... Dostluğun, qardaşlığın simvoludur.

Düşmən işğalından azad olunduqdan, Şuşanın bərpasına başlanıldıqdan sonra həm də şəhərin qonşu və qardaş ölkələrin ayrı-ayrı şəhərləri ilə qardaşlaşması prosesinə start verilib.

Çox keçmədən Şuşanın qardaş Türkiyənin Konya, Kayseri, eləcə də Qazaxıstan Respublikasının Türküstan şəhərləri arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında protokol imzalanıb. Heç şübhəsiz ki, bu siyahı daha da artacaq. Qələbəmizin rəmzi - dostluq, musiqi, poeziya şəhəri Şuşamız həm də sülhün, qardaşlığın əsl ünvanı olacaq.

Azərbaycan. - 2022.-27 noyabr.- S.7.